

# MEDİA SAVADLILIĞI İLƏ BAĞLI BƏLƏDÇİ

- Mənbəyə sual verin!
- İnformasiyanı təhlil edin!
- Tənqidi qiymətləndirin!

Azərbaycan
Respublikasının
Medianın İnkişafı
Agentliyi

Media
Savadlılığı

# Əziz rəqəmsal vətəndaş,

Əminik ki, heç birimiz həyatımızı smartfon telefonlarsız və kompüterlərsiz təsəvvür edə bilmərik. Biz tək toxunuşla mesaj göndəririk, internetdə gəzirik, baxırıq, öyrənirik, əlaqə qururuq. Bu gün rəqəmsal dövrdə internet yalnız özündə geniş baxış bucağını, məlumatları əks etdirmir, həm də bizim düşüncələrimizin dəyişməsində, müxtəlif fikirlərin formalaşmasında da mühüm rol oynayır.

Bütün bu üstünlüklərin fonunda rəqəmsal dünyada olan təhlükələrdən, eləcə də qəbul etdiyimiz və paylaşdığımız məlumatların nəticələrindən xəbərdar olmalı, media və texnologiyalardan istifadə məqsədimizə və məsuliyyətli istifadəçi olub-olmadığımıza diqqət yetirməliyik.

Ümid edirik ki, bu kitabça sizin sərhədsiz informasiya mühitində təhlükəsiz naviqasiyanıza kömək etmək üçün faydalı olacaq.

Tövsiyəmiz - Təhlil edin, tənqidi yanaşın və görünməz təhlükələrdən uzaq olun.

Gəlin birlikdə daha etibarlı və daha təhlükəsiz informasiya mühiti yaradaq.

Media Savadlılığı

# Media savadlılığı nədir?

Media savadlılığı bütün kommunikasiya formalarından və texnologiyalarından istifadə etməklə səmərəli şəkildə media məlumatlarının axtarılması, təhlil edilməsi, tənqidi qiymətləndirilməsi, eləcə də müxtəlif məlumatların paylaşılması bacarıqlarından ibarətdir.

**İnformasiyanı düzgün axtarın**

**Mənbəyə sual verin**

**İnformasiyanı təhlil edin**

**İnformasiyanı tənqidi qiymətləndirin**

**Faktları yoxlayın**

**İnformasiyanı məsuliyyətlə paylaşın**

Media Savadlılığı

## Etibarlı mənbə

- Məlumatın yayımlandığı mənbə nə vaxtdan fəaliyyətə başlayıb? Məlumatlar mütəmadi paylaşılır və yenilənirmi?
- Məlumatların müəllifləri və tarixləri göstərilirmi?
- Mənbədə hansı məqsədlə məlumat paylaşılır? Məlumatları paylaşan şəxslər etibarlıdırlarmı?
- Mənbənin texniki tərtibatı düzgündürmü? Linklər və keçidlər aktivdirmi?
- İstifadəçilər üçün mənbə ilə əks əlaqə imkanları yaradılıbmı?

## Etibarlı informasiya

- İnformasiyanın yayımlandığı mənbə etibarlıdırmı? Məlumatlar tam və obyektiv təqdim edilirmi?
- İnformasiyanın müəllifi sahə üzrə nə qədər ixtisaslı və ya təcrübəlidir?
- İstinad olunan mənbələr etibarlıdırmı? Verilən faktlar digər mənbələrdə də öz təsdiqini tapırmı?
- Məlumatda satira və ya yumor varmı? İnformasiya reallığı nə qədər əks etdirir?
- Məlumatın başlığı məzmununa uyğundurmu? Məlumatda subyektiv fikir və ya rəy mövcuddurmu?

Media Savadlılığı

# Media savadlılığı haqqında miflər

**1. Mif:** Mediada izlədiklərimizin həyatımıza ciddi təsiri yoxdur

**Reallıq:** Media yalnız əyləncə vasitəsi deyil, həm də təsirli məlumat və fikirlər üçün yayım vasitəsidir. Media mənbələri insanların düşüncələrini, davranışlarını və dünya görüşlərini formalaşdıra bilir, ictimai rəyin yaranmasında və mədəni normaların formalaşmasında böyük rol oynayır.

**2. Mif:** İnternetdə yayılan məlumatlar həmişə doğrudur

**Reallıq:** İnternetdə yayılan məlumatların dezinformasiya olma ehtimalı olduqca yüksəkdir. İnformasiya mənbələrinin etibarlılığını yoxlamaq və məlumatın doğruluğunu araşdırmaq dezinformasiyanı aşkarlamaq üçün mütləqdir.

**3. Mif:** İnformasiya yayan mənbələrin hamısı tərəfsizdir və obyektiv məlumat verir

**Reallıq:** İnformasiya yayan mənbələr bir çox hallarda müxtəlif şəxs və qurumların marağını təmsil edə, məlumatın formatı və məzmununu təhrif edərək informasiya manipulyasiyası həyata keçirə bilərlər. Bu səbəbdən məlumatları bir neçə mənbədən yoxlamaq, həmçinin peşəkar media mənbələrinə üstünlük vermək zəruridir.

**4. Mif:** Yalnız gənclər medianın təsirlərinə məruz qalır

**Reallıq:** Mediada qarşımıza çıxan məzmunlar fərqli yaş qruplarına müxtəlif üsullarla təsir etsə də, reklamlar, xəbər proqramları və sosial media bütün yaş qruplarına təsir edəcək gücdədir. Media savadlılığı hər yaşda olan insanlar üçün vacib bir bacarıqdır.

# Dezinformasiyanın asan hədəfi olma!

Dezinformasiyaya qarşı diqqətli olmaq üçün sadə addımlar ataraq həm özünü, həm də ətrafındakıları yanlış məlumatın təsirindən qorumağa kömək edə bilərsən.

Özünü Qoru: Dezinformasiyalara aldanma!

Şəxsi Məlumatlarını Qoru: Sosial media hesablarında məxfilik tənzimləmələrini yoxla və şifrəni heçkimlə paylaşma!

Paylaşmadan Öncə Yenidən Düşün: Yanlış məlumatları paylaşaraq dezinformasiyanın yayılmasına səbəb olma!

*Auditoriyanı aldatmaq və ya çaşdırmaq məqsədilə qəsdən yaradılan və paylaşılan yalan və ya manipulyasiya edilmiş məlumatlar - dezinformasiyalar günümüzün əsas təhdidlərindən biri hesab olunur.*

Media Savadlılığı

# Məlumatı təhlil et!

## Paylaş

**01**

*Dezinformasiyanın qarşısını almaq sizin əlinizdədir – etibarlı mənbələrdən istifadə etmək, saxta xəbərlərlə qarşılaşdıqda onu paylaşmaqdan çəkinmək, həmçinin məlumatın aid olduğu mənbələrlə əlaqəyə keçərək müvafiq məlumatda düzəlişlərin edilməsi üçün xəbərdarlıq etmək lazımdır.*

**02**

*Paylaşdığımız hər məlumat başqaları üçün müəyyən nəticələr yaradır. Özünüzün və ya başqalarının reputasiyasına zərər verə biləcək, neqativ və aqressiv təsir yaradacaq, eyini zamanda netiket qaydalarına uyğun olmayan fikirlər paylaşmaqdan çəkinin. Çalışaq faydalı və etibarlı olan məlumatlar paylaşmaqla müsbət və təhlükəsiz informasiya mühiti yaradaq!*

**03**

*Gördüyümüz hər məlumata inanmalıyıqmı?  - Bir çox hallarda ən geniş yayılan məlumat, ən düzgünü olmaya bilər.*
*Fakt və fikir arasındakı fərqi anlamaq, etibarlı mənbəni ayırd etmək, faktları yoxlamaq informasiya əsrində bəzən həyat xilas edir.*

# QR kod-a
# daxil olaraq əldə edin!

Paylaşım üçün
nəzərdə tutulan
vizuallar

#MediaSavadlılığıHəftəsi
#MəlumatlarıYoxla
#DüşünSonraPaylaş
#MediaLiteracyWeek2024

Azərbaycan
Respublikasının
Medianın İnkişafı
Agentliyi

Media
Savadlılığı

# Əlaqə məlumatları və hesablar

medialiteracy.media.gov.az

media.gov.az

**Ünvan**
Zahid Xəlilov 36, Bakı, AZ 1073

**Telefon**
+99412 526-16-16

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Media Savadlılığı